Miniatürlər

* * *

Ağac sallayaraq budaqlarını,
İnsana "Al!" dedi, tökdü yükünü.
Sonra da düzəldib o, vüqarını
Gözlədi baharı, günəşli günü.

Şairin yaradıb, yazdıqca hər an
Başında fikirlər sanki ümmandır.
Üzündə iztirab, qəlbində tufan,
Ümidi, dayağı ancaq zamandır!..

1971

* * *

– Yaman yağış yağır! – Söylədi çoban –
Çıxara bilmədim malı örüşə!..
– Yaman yağış yağır! – dedi bir oğlan –
Qoy yağsın... Gedirəm qızla görüşə!

1971

* * *

Min il məhkum olsa –
Gülər səadət!
Min il hakim olsa –
Ölər fəlakət!

1972

* * *

Sünbül dənə dolub əydi başını,
Səhərin mehində baxdı torpağa:
Elə bil o gördü can sirdaşını,
O, torpaq qoynunda qalxmış ayağa!..

Əgər qarşılıqlı olsa məhəbbət,
Ürək fərəh tapıb güləcək əlbət!..

1973

* * *

– Gözünü zilləyib o göylərə sən,
De, orda nə məna, nə sirr gəzirsən?
Bir şey tapmısanmı?
Gəl, bunu unut,
Başqa bir peşədən, başqa işdən tut!..

Beyni boş, qəlbi boş olarsa bir kəs,
Heç nədə bir məna kəşf edə bilməz!..

1972

* * *

Günəşdən soruşdum: – Nədəndir, müdam
Yanırsan tükənməz bir hərarətlə?
– Belə yanmağıma inanın, şadam,
Yanıram əbədi saf məhəbbətlə –
Qoy insan şad olsun, qoy gülsün aləm,
Bu dünya görməsin nə zülmət, nə qəm!

1967

* * *

Xəyanət – gözü kor, qulağı da kar,
Dayanıb mal kimi baxır üzünə...
Ömründə olmamış bir gün bəxtiyar,
Özü məzar qazır daim özünə.

O tülkü mərdlikdən danışır mudam,
Mərdlik görməmişdir onda bir adam!..

1968

* * *

– Yenə fikirlisən? Yenə qüssə, qəm?
Heç kimə qalmayıb, inan, bu aləm!
– Bu günü, sabahı düşünməsən, sən
Sevinc də, kədər də, nədir, bilməzsən!

– Bu dərd mənə qalıb? Özgələri var.
– Elədir... Düşünsən, dərdin çox olar!
– Qəribə adamsan... Belədir gerçək:
Beşgünlük dünyadır... Kef sür, nəşə çək!
– Amalsız, inamsız yaşasa insan
Səhrada bir daş da yaxşıdır ondan!..

1971

* * *

Batıb kənd yolunda qəmə, kədərə,
Bir ana qərq olub düşüncələrə.
– Ana, əziz ana! Nə var belə sən,
Göyləri dumanlı bir dağ kimisən?!
– Soruşma... Bu yolda cəbhəyə gedən
Oğlumun izini axtarıram mən!..

1971

* * *

– Bir adam dalınca deyindi yaman!
– Bəs sən nə dedin?
– Yeriyib haman,
Gözümü zillədim onun gözünə,
Get, dedim, bunları söylə özünə!
– Xəcalət verdiniz... Olduqca şadam,
– Görürsən, mən necə sadiq adamam?

1972

* * *

Bu necə hikmətdir,
De, ey həqiqət,
Səni tapdalayan
Çəkir xəcalət?

1971

* * *

Qayna! Qayalardan tökül, ey bulaq!
Atam da, babam da içib suyunu.
Durduqca bu dünya, durduqca bu dağ
Mən də içəcəyəm, bilirəm bunu!
Qayna! Qayalardan tökül, ey bulaq!

Bir də əsməyəcək o qara yellər!
Durduqca bu dünya, durduqca bu dağ,
İçəcək suyundan bizim nəsillər!

1971

* * *

Bir tabut üstündə dedi bir çiçək:
– Dünyada olmaya
Ölüm, fəlakət!
Bir qızın əlində dedi bir çiçək:
– Ah, necə şirinmiş
Həyat, məhəbbət!..

* * *

Səhər də, axşam da işlədi bağban,
Verdi çiçəklərə diləklərini.
Özü bu dünyadan köçdüyü zaman
Tökdülər üstünə çiçəklərini.

Bu torpaq adildir başdan-binadan –
Nə versə, onu da alacaq insan!..

1971

* * *

Atılıb yol üstdə qalan bir daşa,
Canlı həyat verdi bir usta əli.
Yığılıb eylədi hamı tamaşa,
O daş bir sarayın oldu təməli!..

1971

* * *

Doğrunun üstünə qışqırdı oğru:
- Bəs hanı həqiqət, böyük həqiqət?!
Dayandı qaya tək, dinmədi doğru.
O, yenə qışqırdı... Bilmədi, əlbət,
Baxıb bu səhnəyə, bu saat, bu an,
Həqiqət gülürdü ona kənardan.

1965

* * *

Rəsul Həmzətova

Başı qırxılmayıb dağlı başı tək,
Belində xəncər yox; xəncəri sözdür.
Elə bil qartaldır köksündə ürək,
İlhamı çay deyil, coşqun dənizdir!..

Üzündə mehriban dağlı gülüşü,
Həm də ki, bir kamal duyulur bunda!
Saçında gördüyün bu ağ gümüşü
Dağlar səpələyib qarda, tufanda.
Bu eşqi Dağıstan veribdir ona,
Amma sığışmadı o, Dağıstana!..

1965

* * *

İldırım göylərdə çaxdı hiddətlə,
Sanki tufan qopdu dərədə, dağda!
Bir an keçdi... yatdı bir sükunətlə,
Unutdu bu səsi dərə də, dağ da.

Ürək də, əzizim, bir asimandır:
Çaxır ildırımlar min bir küləkdə!
Əzəldən sirdaşı onun insandır,
Ürəkdən qopan söz qalır ürəkdə!..

1966

* * *

Bir insan doğuldu... Öldü... yığıldı,
Danışdı "natiqlər"... Yaşardı min göz.
Qaldı ürəyində ürəyin kamı,
Özü eşitmədi bir kəlmə xoş söz!

1965

* * *

Barını yediyin ağacı kəssən,
Özün barlı ağac ola bilməzsən!..

* * *

Qonşum çapdı divarı,
Batdı bu gün qan-tərə,
Qaranlıq otağına
Açdı özü pəncərə.
Amma qonşum bir dəfə
Öz qeydinə qalmadı,
Qaranlıq vicdanına
O, pəncərə salmadı!

1965

* * *

Min cür əyri yolu var
Dünyada xəyanətin,
Ancaq yolu bir olur,
Hər zaman sədaqətin.

1970

* * *

Birisi pəhləvan deyib özünə,
Yaxına qoymadı bir pəhləvanı.
Qüvvət toplamayıb əsla dizinə
O, qalxan eylədi sözü, böhtanı.

Ay ötdü, il keçdi... Dolandı zaman,
Çirmənib girmədi heç vaxt meydana,
Qırılıb töküldü tutduğu qalxan,
Bir insan pəhləvan demədi ona...

1967

* * *

Namərd bir körpü saldı
Dağda çayın üstündən,
Deyirlər ki, axmadı,
Çay qurudu o gündən!..

1968

Poema

KOROĞLUNUN QOCALIĞI

ƏSLİ ELDƏN ALINMIŞDIR

Tüfəng çıxdı mərdlik getdi, ay haray,
Mənmi qocalmışam, ya zəmanəmi?

"Koroğlu" dastanından

I

O kimdir oturmuş yenə mükəddər
Ağarır saçları təzə qar kimi.
Tutulmuş başının üstündə göylər,
Düşünür bir özgə fikri var kimi...

O kimdir, xəyalı, halı pərişan,
Baxır uzaqdakı sıra dağlara?!
Bəlkə bir dünyadır qəlbində yanan,
Bəlkə də varlığı çəkilir dara?!

Bəlkə bir yolçudur elindən uzaq,
Qalmış intizarda, yol üstündə tək?
Ruhunu açmayır bu yer, bu torpaq,
Ömrünün göyündə oynayır şimşək?

Yox, yox! Tanıyıram o ixtiyarı,
O baxış, o görkəm mənə tanışdır!
Alışıb yananda qışda buxarı
Ondan qoca nənəm çox danışmışdır!

Onun da bir günü –dövranı vardı,
Gəzərdi başında qorxmaz dəlilər.
Ordu dağıdardı, karvan çapardı,
Bağdada, Dərbəndə edərdi səfər.

Orda ki, İsgəndər goldi Arana,
Kamal bayrağını qaldırdı Sokrat,
Düşüb qasırğaya, düşüb borana,
O da o yerlərdə oynatmışdır at!

Hər eldən, obadan seçmiş bir gözəl,
Nigar məclisində gəzdirmiş badə.
Vurulmuş mərd kimi, yaşamış gözəl:
"Namus bayrağımdır!" – demiş, – dünyada!

Çənlibel olmuşdur onun oylağı,
Çırpınmış gölündə ördəyi, qazı.
Gəzib dolanmışdır min bir yaylağı,
Alıb sinəsinə sədəfli sazı.

Qıratın belində uçduğu zaman.
Görən mat qalardı baxınca ona.
Açdığı süfrəni görsəydi bir xan
Onun qısqanardı götür-qoyuna!..

Bəzən səhv etsəydi işində əgər
Yatardı hirsindən üç gün, üç gecə.
Sonra oynayaraq aydın bir səhər
Nigarı istərdi hər şeydən öncə.

Deyərdi: "Hardadır söhbətim, sazım?
Quzular kəsilsin, məclis düzəlsin!
Hanı Bəlli Əhməd, hanı Eyvazım?
Çağırın, dəlilər yanıma gəlsin!.."

Gələrdi dəlilər şövkətlə, şanla,
Hamı kabab yeyib, şərab içərdi.
Öpüb dostlarını, o, bir inamla
Düşmənin üstünə dağlar keçərdi!